

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 88 (23.250)

11 may 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 10-da – xalqımızın xilaskar oğlu, ümummilli liderimiz Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin xatirəsini ehtiramla anıb.

* * *

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 10 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır.

**Babayev Zeynalabdin Abdulla oğlu**
**Babayeva Stella Rza qızı**
**Bağırov Tamerlan Kamal oğlu**
**Hüseynova Gülnarə Hüseyn qızı**
**Mahmudov Zülfüqar Xudaverdi oğlu**
**Məmmədov Əbülfəz Səid oğlu**
**Məmmədov Natiq Hidayət oğlu**
**Məmmədov Səyyad Çapay oğlu**
**Nuriyev Nurlan Nurməmməd oğlu**
**Süleymanova Ulduz İbrahim qızı**

# Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü qeyd olunub





Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə və baş idarələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri də abidə önünə tər güllər düzmüşlər.

Ulu öndər Heydər Əliyevin ömür yolu doğma Vətəninin inkişafına və xalqının rifahına həsr olunmuşdur. Ən çətin vaxtlarda xalqının yanında olan, xilaskarlıq missiyasını uğurla yerinə yetirən və müstəqil Azərbaycanın qurucusuna çevrilən ulu öndərin irsi Azərbaycan xalqının milli sərvətidir. ***"Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan torpağı mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, mənim Azərbaycan kimi millətim var. Mən fəxr edirəm ki, mənim doğma ana dilim, Azərbaycan dilim var. Mən fəxr edirəm ki, müstəqil, azad, qüdrətli Azərbaycan dövləti var"***, – deyən dahi rəhbərin həyatının mənası da məhz Azərbaycan idi.

Ümummilli liderimiz Azərbaycanın müasir simasını müəyyənləşdirmişdir. Onun ölkəmizə hər iki rəhbərliyi dövrü, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illər müstəqil dövlətçilik tariximizin şanlı səhifələridir. Dahi rəhbər hələ ötən əsrin 70-ci illərindən başlayaraq dahiyanə uzaqgörənliklə ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks layihələrin həyata keçirilməsinə nail olmuşdur. O dövrdən başlanan sürətli inkişaf dağ və sərhəd rayonlarını da öz əhatəsinə almış, sənaye, tikinti-quruculuq və aqrar-sənaye kompleksinin inkişafına nail olunmuş, emal və hasilat şəbəkəsi genişlənmişdi. Azərbaycanın böyük şəhərlərində zavodlar, fabriklər, kombinatlar tikilmiş, müxtəlif təyinatlı müəssisələr yaradılmış, əhalinin işlə təminatı yaxşılaşdırılmışdı.

Ulu öndərimiz Azərbaycanın gələcək müstəqilliyi üçün təkcə iqtisadi əsaslar



yaratmamış, bununla yanaşı, elm, təhsil, mədəniyyət və incəsənət sahələrində də böyük nailiyyətlər qazanılmış, milli oyanışın əsası qoyulmuşdur. Bir sözlə, böyük dövlət xadimi Heydər Əliyev 1969-1982-ci illərdə ölkəmizdə yüksək iqtisadi, elmi-mədəni və milli kadr potensialı formalaşdırmaqla bugünkü müstəqil Azərbaycanın möhkəm bünövrəsini yaratmışdır.

1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında müstəqil dövlətçiliyimizin əsaslarını hazırlayan, üçrəngli bayrağımızı qaldıran, bu qədim diyarda milli birliyimizin və həmrəyliyimizin əsasını qoyan, ilk milli ordumuzu yaradan ümummilli liderin 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizə parlaq səhifələr yazmışdır.

Aydın məsələdir ki, sabitlik olmadan heç bir ölkədə siyasi və iqtisadi islahatları aparmaq mümkün deyil. Ona görə də qısa zamanda ulu öndərin zəngin dövlətçilik təcrübəsi, qətiyyəti, uzaqgörənliyi sayəsində ölkəmizdə siyasi sabitlik bərqərar olunmuş, irimiqyaslı iqtisadi layihələrin icrasına başlanmışdı. Həmin illərdə ümummilli liderimizin işləyib hazırladığı quruculuq xətti qısa zamanda ölkəmizdə ictimai-siyasi sabitliyin təminatına çevrilmiş, Azərbaycan dünya iqtisadi sisteminə inteqrasiya olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan, xalqın dəstəyinə arxalanan xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk".***

Bu gün ümummilli lider Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmiş, Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası da inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada makroiqtisadi sabitliyi bərqərar etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!"***

Ulu öndər Heydər Əliyevin həyatı Azərbaycanın əbədi müstəqilliyinə, qüdrətli dövlətçiliyinə və davamlı inkişafına həsr olunmuşdur. Bu gün Heydər Əliyev siyasi xəttinin bəhrəsi dünyanın inkişaf etmiş ölkələri içərisində layiqli yerini tutmuş qüdrətli Azərbaycandır. Azərbaycan var olduqca Heydər Əliyev də yaşayacaq, Onun ideyaları xalqımızı daha böyük inkişafa qovuşduracaqdır. Ulu öndərin də dediyi kimi, ***"Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"***

Mayın 10-da Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalı başa çatıb




Naxçıvan şəhərindəki Şahmat Mərkəzində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalına yekun vurulub. Festivalda 14 ölkəni – Ukrayna, Belarus, Belçika, ABŞ, İran, Hindistan, Latviya, Yunanıstan, Türkiyə, Rusiya, Gürcüstan, Özbəkistan, Qazaxıstan və Azərbaycanı təmsil edən 356 şahmatçı mübarizə aparıb. Zəka sahibləri “A”, “B” və “C” qruplarında iştirak ediblər.

Dünən Naxçıvan şəhərindəki Şahmat Mərkəzində festivalın qaliblərinin mükafatlandırma mərasimi olub. Tədbirdə festivalın baş hakimi Faiq Həsənov çıxış edərək şahmatçılara yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığını bildirib.

Sonra mükafatlandırma mərasimi başlayıb. İlk olaraq “C” qrupunda yaş qrupları üzrə qaliblər mükafatlandırılıb. Belə ki, 8, 10 və 12 yaşlı oğlanların mübarizəsində müvafiq olaraq Turan Mirzəyev (Naxçıvan), Nazar Talgatov (Qazaxıstan), İlqar Məmmədov (Rusiya), qızların mübarizəsində isə Məryəm Abbaszadə (Bakı), Lalə Hüseynova (Bakı) və Bayram Banu (Bakı) qalib adını qazanıblar. Ümumilikdə, “C” qrupunun qalibi 8 xalla İlqar Məmmədov olub.

“B” qrupunda Elxan Bayramov (2158) son görüşdə qələbə qazanaraq 8,5 xalla qrupda qalib olub. Atilla Eynullayev (2175) 7,5 xalla ikinci, Amil Abbasov (2215), Şahin Hüseynov (2189) və Elvin Bayramov 7 xalla 3-5-ci yerləri bölüşüblər.

“A” qrupunun lideri amerikalı qrossmeyster Timur Qarayevin (2560) isə belçikalı qrossmeyster Vadim Malaxatko (2508) ilə görüşü heç-heçə nəticələnib.

Azərbaycanlı qrossmeyster Eltac Səfərli (2624) qrossmeyster Nicat Abasova (2633), azərbaycanlı beynəlxalq usta Məhəmməd Muradlı isə (2451) gürcüstanlı qrossmeyster Tornike Sanikidzeyə (2488) məğlub olublar. Azərbaycanlı beynəlxalq usta Vüqar Əsədli (2454) özbəkistanlı beynəlxalq usta Ortik Niqmatovla (2469) heç-heçə oynayıb.

Naxçıvanlı zəka sahiblərindən qrossmeyster Urfan Sevdimalıyev (2352) azərbaycanlı beynəlxalq usta Abdulla Qədimbəyliyə (2394), FİDE ustası Sadiq Məmmədov (2205) qrossmeyster Xəyalə Abdullaya (2228) məğlub olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2323) azərbaycanlı şahmatçı Ləman Hacıyeva ilə (2041), FİDE ustası Pərviz Qasımov isə (2328) beynəlxalq usta Xanım Balacayeva ilə (2358) xalları bölüşüblər. Beynəlxalq usta Talıb Babayev (2329) hindistanlı beynəlxalq usta Nandhidhaa PV üzərində qələbə (2314) qazanıb. Beləliklə, 9 görüşdən 7,5 xal toplayan amerikalı



qrossmeyster Timur Qarayev (2560) turnirin qalibi olub. Azərbaycanlı qrossmeyster Nicat Abasov (2633) 7 xalla ikinci, gürcüstanlı qrossmeyster Tornike Sanikidze isə 6,5 xalla üçüncü olub. Digər 5 zəka sahibi 6 xalla 4-8-ci yerləri bölüşüb.

Sonda çıxış edən Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov festivalın keçirilməsində əməyi olanlara təşəkkürünü bildirib. Federasiya sədri ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının qalibi amerikalı qrossmeyster Timur Qarayevə kuboku təqdim edib, yarışda yaxşı nəticə göstərmiş ən kiçikyaşlı şahmatçı Əli Zamanovu (Naxçıvan) da mükafatlandırıb. Federasiya sədri qalibləri təbrik edərək onlara növbəti yarışlarda uğurlar arzulayıb və festivalı bağlı elan edib.

✍ Səbuhi HƏSƏNOV

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü muxtar respublikamızda bayram əhval-ruhiyyəsi ilə qeyd edilib

### *Şərur rayonu*



Ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyə gəldiyi 1969-cu ildə respublikamız iqtisadi durğunluq, siyasi və mənəvi tənəzzül vəziyyətində idi. Qısa vaxtda dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada yaranmış sosial-iqtisadi durum hərtərəfli təhlil olundu, geriliyin səbəbləri aşkara çıxarılaraq aradan qaldırıldı.

Görkəmli dövlət xadiminin yorulmaz, məqsədyönlü fəaliyyəti, həyata keçirdiyi tədbirlər nəticəsində respublikamız, o cümlədən Naxçıvan Muxtar Respublikası da yüksəliş və tərəqqi dövrünə qədəm qoydu.

Həmin illərdə Şərur rayonunda geniş üzüm plantasiyaları və meyvə bağları salınıb, istehsal olunan məhsulun ilkin emalı üçün 6 şərab zavodu, o vaxtadək keçmiş SSRİ-də analoqu olmayan konserv, yağ-pendir zavodları tikilib, dəmir-beton konstruksiyaları, qum-çınqıl emalı müəssisələri, radiozavod, asfaltzavod işə salınıb. Arpaçay Su Anbarının və bu anbardan qidalanan sağ və sol sahil kanallarının istismara verilməsi ilə 40 min hektardan artıq torpaq sahəsinə yeni həyat verilib.

Muxtar respublikamızda ulu öndərin quruculuq siyasətinin ehtiramla və uğurla davam etdirilməsinin nəticəsidir ki, son 25 ilə yaxın bir dövrdə Şərur müasir Azərbaycan rayonuna çevrilib. Hər il bölgədə genişmiqyaslı quruculuq tədbirlərinin aparılması rayonun ayrılmaz həyat ritminə çevrilib.

Xalqımızın ümummilli lideri, bütün zamanların ən böyük azərbaycanlısı Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da geniş qeyd olunub. Rayonun idarə və müəssisələrində ulu öndərimiz Heydər Əliyevin anadan olmasının ildönümü ilə əlaqədar keçirilmiş tədbirlərdə dahi rəhbərin həyat və fəaliyyətinə bir daha nəzər salınıb, onun Azərbaycanımızın hərtərəfli inkişafı naminə xidmətlərindən danışılıb.

Mayın 10-da isə rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbərin rayon mərkəzindəki əzəmətli abidəsi önünə gələrək ümummilli liderə, onun əbədiyaşar siyasətinə sadiq olduqlarını bir daha nümayiş etdirib, abidə önünə tər qərənfillər düzüblər.

Elman MƏMMƏDOV

### *Babək rayonu*



Görkəmli dövlət xadiminin anadan olmasının 96-cı ildönümü münasibətilə mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbərin əzəmətli abidəsi önünə tər qərənfillər düzüblər.

Ulu öndərimiz Azərbaycan xalqının tarixində ən yüksək zirvəni fəth edən, öz misilsiz xidmətləri ilə xalqına müstəqillik bəxş edən, onu inkişafa, firavanlığa və qüdrətə çatdıran dahi liderdir.

Azərbaycan xalqının milli müstəqilliyi və dövlətçiliyi yenidən xalqın böyük oğlu Heydər Əliyevin qırılmaz siyasi iradəsi ilə bərpa edilib. Bu gün inkişaf və tərəqqinin zirvəsində dayanan, hərbi qüdrətə, dayanıqlı iqtisadi gücə və hərtərəfli inkişafa malik olan Azərbaycanın bu inkişafa çatmasında yeganə amil Heydər Əliyev şəxsiyyəti və dahi liderin Vətəninə, xalqına sonsuz məhəbbəti olub.

Babək rayonu da ulu öndərin yadigarlarından hesab olunur. Dahi rəhbərin təşəbbüsü ilə 1978-ci il oktyabrın 23-də təşkil olunan rayon bu gün öz müasir görkəmi ilə diqqəti cəlb edir. O dövrdə rayona xalq qəhrəmanı Babəkin adının verilməsi ulu öndərin siyasi iradəsinin və milli tarixi ənənələrə böyük bağlılığının nəticəsi idi.

Müstəqillik illərində rayonun yaşayış məntəqələri abadlaşdırılıb, yeni yollar salınıb, müxtəliftəyinatlı obyektlər tikilərək və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib. Rayon mərkəzi də daxil olmaqla, kənd yaşayış məntəqələrində yaradılmış infrastruktur Heydər Əliyev siyasi xəttinin rayon sakinlərinə bəxş etdiyi töhfədir. Bu il rayonun daha 2 yaşayış məntəqəsi – Gülşənabad və Kültəpə kəndlərində kompleks quruculuq işləri aparılır. Bütün bu tədbirlər dahi şəxsiyyətin müəyyən etdiyi quruculuq strategiyasının uğurlu davamıdır.

Muxtar RZAZADƏ

* * *

### *Ordubad rayonu*

Tarixdə elə şəxsiyyətlər var ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Belə nadir şəxsiyyətlərdən biri də görkəmli siyasi və dövlət xadimi ulu öndər Heydər Əliyevdir. Bu dahi şəxsiyyətin adı və həyatı Azərbaycanın dövlətçilik və müstəqillik tarixi ilə qoşa çəkilir. Görkəmli dövlət xadiminin keçdiyi həyat yolu hər bir azərbaycanlı üçün əbədi örnəkdir.

Dahi rəhbərin ideyaları bu gün Azərbaycan xalqını yaşadan və daim irəliyə aparan, onun gələcəyini müəyyənləşdirən ideyalardır. Bugünkü müstəqil Azərbaycan dövləti öz varlığına, inkişaf və tərəqqisinə görə ulu öndər Heydər Əliyevə borcludur. Buna görə də xalqımız ümummilli liderin xatirəsini həmişə



əziz tutur.

Ölkəmizi vətəndaş müharibəsindən, xəritədən silinmək təhlükəsindən xilas edən, respublikamızın çiçəklənməsinin əsasını qoyan dahi rəhbər Ordubad rayonuna da xüsusi diqqət və qayğı ilə yanaşırdı. Hələ 1980-ci ilin may ayında ümummilli lider Heydər Əliyev Ordubadda olarkən bu gözəl və qədim məkanı “Azərbaycanın incisi” adlandırıb. Ondan bir neçə il əvvəl isə – 1977-ci ildə öz orta əsr plan quruluşunu qoruyub saxlayan Ordubad şəhərinin “Qoruq şəhər” elan edilməsi üçün göstəriş verib. Ötən əsrin 90-cı illərinin əvvəllərində rayon erməni hücumları nəticəsində ilk şəhidlərini verərkən ulu öndər sakinlərlə həmrəy olmaq üçün rayona gəlib. Daha sonralar ümummilli liderin başlatdığı işin uğurla davam etdirilməsi nəticəsində Ordubad rayonu öz simasını kökündən dəyişib. İstər rayon mərkəzində, istərsə də kənd və qəsəbələrimizdə inşa olunan yeni binalar, salınan yollar, park və xiyabanlar bu yaşayış məntəqəsində qədimliklə müasirliyin gözəl vəhdət təşkil etməsinə səbəb olub. Rayonun tamamilə qazlaşdırılması, elektrik enerjisi probleminin birdəfəlik həll edilməsi, əhalinin güzəranının yaxşılaşdırılması üçün həyata keçirilən digər tədbirlər ulu öndərimizin siyasətinin uğurla davam etdirilməsi nəticəsində mümkün olub. Elə buna görə də ordubadlılar heç bir zaman dahi rəhbərin göstərdiyi diqqət və qayğını unutmur, hər addımda bu əvəzedilməz şəxsiyyətin xatirəsini əziz tuturlar.

Mayın 10-da dahi rəhbərin rayon mərkəzindəki abidəsi önünə toplaşan sakinlər abidə önünə tər güllər düzüb, ulu öndərin xatirəsi dərin ehtiramla yad edilib.

Abbas SEYİD

* * *

### *Culfa rayonu*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü Culfa rayonunda da yüksək səviyyədə qeyd olunub. Rayon ictimaiyyətinin nümayəndələri ulu öndərin Culfa şəhərinin mərkəzində ucalan abidəsi önünə gələrək gül dəstələri düzüblər.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə irəliləməsi məhz ümummilli liderimizin uzaqgörən siyasəti sayəsində mümkün olub.

Bu gün əsası görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət, quruculuq tədbirləri, regionların sosial-iqtisadi inkişafı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasında da ulu öndərin istər siyasi, istərsə də quruculuq xətti böyük ehtiramla davam etdirilir. Ona görə də bu qədim diyar özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.



Bu inkişafı Culfa rayonunun da timsalında görmək olar. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə rayonda bütün sahələrdə uğurlu nəticələr qazanılıb. Ötən əsrin sonlarında dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda torpaq islahatları ilk dəfə Culfa rayonunun kəndlərində aparılıb. Tarixi, iqtisadi, sosial, mədəni sahələrdə atılan addımlar bölgənin hərtərəfli inkişafına geniş imkanlar açıb. Bu yeni inkişaf mərhələsində rayonun kənd yaşayış məntəqələrində kompleks quruculuq işləri aparılıb, onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Kənd yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzi Culfa şəhəri də bu quruculuq və abadlıq tədbirlərindən güc alaraq daha da gözəlləşib. Hazırda rayon Rabitə İdarəsinin binası, ümummilli liderin adını daşıyan prospekt əsaslı şəkildə yenidən qurulur.

Hüseyn ŞƏKƏRƏLİYEV

## Şahbuz rayonu



Mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarında xalqımızın xilaskarı olan ulu öndər Heydər Əliyevin Şahbuz şəhərinin mərkəzində ucaldılmış büstünü ziyarət ediblər.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilib, Azərbaycan öz müstəqilliyinə qovuşub. ***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"***, – deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, milli dövlətçilik konsepsiyasını yaradıb. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizin hər yerində bütün sahələrin inkişafına nail olunub, ən ucqar kəndlər belə, müasirliyə qovuşub.

Şahbuz rayonunun da iqtisadiyyatı inkişaf etdirilib, quruculuq, yenidənqurma, tikinti, abadlıq tədbirləri geniş vüsət alıb, əhalinin maddi-rifah halı yüksəldilib. Şahbuzda Şərab, Badamlı mineral sular, Avtomobil təmiri zavodları, Naxçıvan şəhərindəki Radiozavodun və Alt trikotaj malları fabrikinin Şahbuz filialları fəaliyyətə başlayıb. Həmçinin dərman bitkiləri, gön-dəri, meyvə, yun tədarükü və süd emalı məntəqələrinin də yaradılması əhalidən qəbul olunan xammalın istehsalına imkan verib. Texniki peşə məktəblərinin təcrübə sahələrində gənclərə müxtəlif peşə, sənət sahələri öyrədilib, ictimai iaşə obyektlərində və başqa xidmət təşkilatlarında, onların filiallarında əhaliyə yüksək səviyyədə xidmətlər göstərilib. İstehsal sahələrinin fəaliyyəti sayəsində yüzlərlə rayon sakini işlə təmin olunduğundan bu məsələ öz həllini tapıb.

Ümummilli liderin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra uzaqgörənliklə əsasını qoyduğu genişmiqyaslı quruculuq tədbirləri Şahbuz rayonunda məqsədyönlü şəkildə davam etdirilir. Uzun illər görülən işlər nəticəsində nəinki rayonun siması dəyişilib, yolları yenidən müasir formada istifadəyə verilib, kəndlər abadlaşdırılıb, yeni infrastruktur sahələri yaradılıb. Məhz Heydər Əliyev siyasətinin bəhrələri ilə günügündən böyüyən, gözəlləşən Şahbuz qəsəbəsinə şəhər statusunun verilməsi onun daha da inkişaf edib genişlənməsinə səbəb olub. Dahi liderin Azərbaycanda ikinci dəfə hakimiyyəti dövründə Şahbuz Dövlət Təbiət Qoruğu, Heydər Əliyev Su Anbarı, çox sayda sosial obyektlər, istehsal müəssisələri yaradılıb. Şahbuzlular bu gün də ümummilli lideri minnətdarlıqla xatırlayır. Ulu öndərə olan sevgilərini, rəğbətlərini dahi rəhbərin 96-cı ildönümündə rayon mərkəzində ucaldılan büstünün önünə tər qərənfillər düzməklə ifadə ediblər.

**Hicran ƏLİYEVA**

## Kəngərli rayonu



Mayın 10-da Kəngərli rayon ictimaiyyəti, həmçinin müxtəlif idarə, müəssisə, təşkilatların kollektivləri ulu öndər Heydər Əliyevin Qıvraq qəsəbəsində ucaldılmış əzəmətli abidəsini ziyarət edib, abidə önünə tər qərənfillər düzüb, bu böyük insana olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.

Bu gün Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanın taleyi etibarlı əllərdədir və qurulan möhkəm təməl, aparılan uğurlu siyasət müstəqilliyimizin sarsılmazlığına və davamlı inkişafa tam təminat verir.

Ümummilli liderin ideyaları Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişafa qovuşdurub. Dahi şəxsiyyətin xalqımızın tərəqqisi naminə müəyyənləşdirdiyi inkişaf konsepsiyası, irimiqyaslı proqramlar muxtar respublikada uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, bütün bölgələrimiz kimi, Kəngərli rayonu da gözəlliklər diyarına çevrilib. Bu il yaradılmasının 15 illiyi tamam olan rayonda ötən illər ərzində mühüm infrastruktur layihələri həyata keçirilib, bölgənin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verib. Təhsil, səhiyyə, idman, mədəniyyət müəssisələri və digər sosialyönümlü obyektlər tikilərək istifadəyə verilib.

Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi Qıvraq qəsəbəsi öz simasını tamamilə dəyişib. İndi bu adıçəkilən məkanda bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik Mədəniyyət Sarayı, ümummilli lider Heydər Əliyevin abidəsi və digər quruculuq ünvanları rayon mərkəzinin gözəlliyinə əlavə gözəlliklər qatır. Ötən dövrdə rayonun bütün yaşayış məntəqələri abadlaşdırılıb, rayon mərkəzi ilə kəndləri birləşdirən yollar yenidən qurulub. İstehsal və emal müəssisələrinin fəaliyyəti təmin edilərək geniş iqtisadi potensialın əsası qoyulub, əhalinin məşğulluğunun və güzəranının yaxşılaşdırılması üçün etibarlı təminat yaradılıb. Muxtar respublikamızda tarix və mədəniyyətimizə göstərilən böyük dövlət qayğısının nəticəsidir ki, son dövrlərdə rayon ərazisindəki tarixi-mədəniyyət abidələrinin bərpası və təmiri istiqamətində mühüm işlər görülüb.

Kənd təsərrüfatı rayonu kimi ixtisaslaşan Kəngərlidə aqrar sahənin inkişafı da daim diqqət mərkəzində saxlanılır. Mütərəqqi suvarma metodlarının tətbiqi, qapalı suvarma şəbəkələrinin qurulması rayonda əkinçiliyin inkişafı üçün geniş imkanlar açıb, susuz sahələrə həyat verilib, yüz hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılıb, məhsul bolluğu üçün şərait yaradılıb.

Bu il martın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü qeyd edilib, Qıvraq qəsəbəsində yeni yaşayış binasının açılışı olub. Rayonun yaradılmasının 15-ci ildönümündə sakinlərlə görüşündə Ali Məclisin Sədri rayonun keçdiyi tarixi inkişaf yoluna nəzər salaraq demişdir: ***"Ötən dövrdə rayonun ictimai-siyasi həyatında böyük dəyişikliklər baş vermiş, geniş quruculuq işləri görülmüş, müasir rayon formalaşmışdır. Aparılan abadlıq-quruculuq işlərinin davamı olaraq bu gün rayonda su-kanalizasiya sistemləri qurulur, meliorasiya tədbirləri həyata keçirilir, tarixi abidələr bərpa olunur, məktəblər tikilir, yollar çəkilir, rayon ərazisindəki hərbi hissələr müasir xidmət və yaşayış şəraiti ilə təmin olunur. Görülən bu işlər rayonun inkişafını daha da sürətləndirəcək, Kəngərli Azərbaycanın qabaqcıl rayonları sırasında öz yerini tutacaqdır".***

Bəli, günü-gündən gözəlləşən və müasirliyə qovuşan Kəngərli rayonu hazırda özünün yüksəliş və intibah dövrünü yaşayır. Bu inkişaf, müasirlik və yeniləşmə ümummilli lider Heydər Əliyevin ideyalarının uğurla davam etdirilməsinin nəticələridir.

**Babək İSMAYILOV**

* * *

## Sədərək rayonu

Sədərəyin 1990-cı il avqust ayının 28-də muxtar respublikanın inzibati ərazi bölgüsünə rayon kimi daxil olması bölgənin geostrateji mövqeyi ilə bağlı idi. 2002-ci ilin avqust ayında Sədərək əhalisi ilə görüşündə ümummilli liderimiz bunu belə açıqlamışdı: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir, mən indi qəsəbəni belə görəndə həddindən artıq sevinirəm…"***



Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Sədərək rayonu XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən hücumlara məruz qalıb, Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər gedib. O zaman vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün öz siyasi nüfuzu, zəngin dövlətçilik və idarəetmə təcrübəsi sayəsində dünyanın diqqətini burada baş verən hadisələrə yönəldib. Ulu öndərimizin tövsiyələrinə uyğun olaraq bu tarixi və strateji Azərbaycan rayonuna bu gün də xüsusi diqqət yetirilir.

Sədərəklilər ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, sakini olduqları rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri Heydərabad qəsəbəsinin mərkəzində ucalan ulu öndərin büstünü ziyarət edib, önünə gül dəstələri düzərək dahi rəhbərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Rayon sakinləri ilə söhbətimiz zamanı onlar dedilər ki, Sədərəyin sürətli inkişafı bu gün mənfur düşmənlərə ən böyük gözdağıdır. Burada son illərdə müasir tələblərə cavab verən onlarla ikimərtəbəli yaşayış evləri, rayonun idarə, müəssisə və təşkilatları üçün inzibati binalar tikilib. Hazırda belə quruculuq ünvanlarından biri də rayonun mərkəzi Heydərabad qəsəbəsindədir. Burada inşa edilən 7 mərtəbəli bina 48 mənzildən ibarət olacaq. Bu, rayon sakinlərinə, xüsusən gənc ailələrə göstərilən dövlət qayğısının əyani ifadəsidir.

Ulu öndərin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsində digər bölgələrimizlə yanaşı, rayonun Sədərək və Qaraağac kəndləri də bu gün müasirlik donundadır. Muxtar respublikanın ən böyük kənd yaşayış məntəqəsi olan Sədərək hərtərəfli dövlət qayğısı hesabına qəsəbə təsiri bağışlayır. Rayonun bir neçə idarə və təşkilatı bu kənddə fəaliyyət göstərir. Onlar üçün son illərdə müasir tələblərə cavab verən yeni tikililər inşa olunub. Bütün bunlar hər bir sədərəklini ruhlandırır, onları torpağa, elə-obaya daha sıx tellərlə bağlayır.

**Sərxan İSMAYILOV**

# Gənclər Azərbaycanın gələcəyidir

***Heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcudluğu üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı gənclərdir.***

Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində gənclərə daim qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Ulu öndər Heydər Əliyev çıxışlarının birində bu barədə demişdir ki, gənclərimiz milli ruhda, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, onu sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

Azərbaycan gəncliyi dünyanı heyrətə gətirməyi bacaran gənclikdir. Onun sədası sərhədlər aşır, ölkələr dolaşır. Əfsanəvi Mübariz İbrahimov bir anda nəinki öz adını, həm də Azərbaycanın adını tarixə yazdı. Birinci Avropa oyunlarında Vətənimin himni dəfələrlə səsləndirildi, bayrağı qaldırıldı, səmada dalğalandı. Bütün bunların müəllifi Azərbaycan gəncliyidir.

Tarixdən də şahidi olmuşuq ki, istər müstəqillik əldə etmək istəyəndə, istər torpaqlarımızın müdafiəsində, istərsə də ölkəmizin ölkələr arasında idman, təhsil, musiqi sahələrində tanınmasında gənclərimizin rolu əvəzsiz və danılmazdır. Bu gün Azərbaycan gəncliyi hər bir sahədə öz sözünü deməyi bacarır. Buna biz hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda şahid olduq. O zaman gənclərimiz Şərqdə ilk dəfə demokratik respublikanın yaranmasına nail oldular. Mübariz gənclərimiz öz adlarını Azərbaycan tarixinə sala bildilər. Sonralar biz bunu 71 il Sovet hakimiyyətinin əsarəti altında qalan, lakin əzilməyən xalqımızın yenidən müstəqil Azərbaycan yaratmaq istəyində də gördük. 20 Yanvar hadisələrində qorxmadan, çəkinmədən düşmənin tankı altında, gülləsi qabağında öz canından keçən məgər Azərbaycan gəncliyi deyildimi? Azərbaycan gəncliyi bir daha şanlı tarixə öz adını həkk etdirdi.

Müasir gənclər siyasətinin banisi ümummilli liderimiz Heydər Əliyev həmişə çıxışlarında deyirdi ki, bizim bugünkü gəncliyimiz sağlamdüşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz öz xalqına, dövlətinə daim xidmət etməlidir.

Gəncliyin sağlam ruhlu, savadlı, dünyagörüşlü, bacarıqlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və uğur onlarla bir addımlayır.

Hər bir sahədə dünya ölkələrinin rəğbət və nüfuzunu qazanan Naxçıvan gənclər siyasəti sahəsində də sözünü deyə bildi. Naxçıvan şəhərinin 2018-ci il üçün Azərbaycanın Gənclər Paytaxtı seçilməsi sabahımıza, etibarlı gələcəyimizə göstərilən diqqətin, qayğının və etimadın daha bir ifadəsi və gəncliyimizin qələbəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri etibarlı gələcəyi sağlam gəncliyin formalaşmasında görür, bu sahəyə daim qayğı göstərir. Muxtar respublikamızda yaradılan şərait gənclərimizin sağlam yaşaması, təhsil alması və dəyərli vətəndaş kimi yetişməsi üçün geniş imkanlar yaradır. Fəxr edirik ki, Naxçıvan gəncliyi ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçir.

Biz gənclər sabaha daha inamla, ümidlə gedirik. Bilir və inanırıq ki, hələ qarşıda çoxlu qələbələr var. O qələbələrin yaradıcısı, sahibi daim qalibiyyət kürsüsündə olmağa adət etmiş Azərbaycan gəncliyidir.

Bu gün mən məktəbliyəm. İstər tanıdığım gəncləri, istərsə də digər uğur əldə etmiş gəncləri gördükdə düşünürəm ki, biz gənclər Azərbaycanın gələcəyiyik. Bizə göstərilən qayğıya, bizim üçün yaradılan şəraitə görə dövlətimizə həmişə minnətdarıq. Biz gənclər tariximizi, ədəbiyyatımızı, coğrafiyamızı mükəmməl öyrənməli, hansı sahədə olursa-olsun Azərbaycanımızı layiqli şəkildə tanıtmalıyıq.

**Xuraman MƏMMƏDTAĞIYEVA**
***Ordubad şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdi***

## "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda interaktiv dərs



*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda interaktiv dərs keçilib.*

Dərsdə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev bildirib ki, dahi şəxsiyyətin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır. Xalqımızın böyük oğlunun 1990-cı il iyul ayının 22-də Naxçıvana qayıdışı Azərbaycanın qurtuluş tarixinin parlaq səhifəsidir. Bu böyük şəxsiyyətin Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsi və milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə nəticələnmişdir.

Bildirilib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən qurtarıb, onun itirilməkdə olan müstəqilliyini qoruyub saxlayıb.

Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır.

Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bu siyasi ideologiyaya sədaqətin nəticəsidir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf edir, quruculuq obyektlərinin sayı günbəgün artır, əhalinin yaşayış səviyyəsi yüksəlir. Muxtar respublikamız da bu gün özünün sürətli inkişaf dövrünü yaşayır.



Naxçıvan şəhər 8 nömrəli tam orta məktəb



M.Füzuli adına Ordubad şəhər internat tam orta məktəbi

Dərsi izləyənlər Heydər Əliyev Muzeyindəki eksponatlarla virtual şəkildə tanış olublar. Muzey haqqında şagirdlərə ətraflı məlumat verilib.

Qeyd edək ki, mayın 10-da bütün təhsil müəssisələrində bir dərs saatı da ümummilli lider Heydər Əliyevə həsr olunub.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Bu şahmat bayramı mənim üçün unudulmaz oldu

*"Naxçıvan-2019" Beynəlxalq Şahmat Festivalının qalibi amerikalı Timur Qarayevlə müsahibə*



***– Timur, ilk olaraq sizi festivalın qalibi olmağınız münasibətilə təbrik edirik. Sizin üçün bu şahmat bayramı nə ilə yadda qalacaq?***

– Bəli, mayın 1-dən davam edən şahmat həyəcanı sona çatdı və mən artıq bu turnirin qalibiyəm. Bu gün belaruslu şahmatçı Vadim Malaxatko ilə heç-heçəyə razılaşdım və bu, mənim çempionluğum üçün kifayət idi. Bir-birindən gərgin və maraqlı keçən oyunlardan sonra arzu etdiyim nəticəyə çatdığım üçün özümü xoşbəxt hiss edirəm. Ayrıca olaraq, bu yaz Azərbaycanın qədim diyarına gələ bilmək, onun tarixini, mədəniyyətini və gözəl təbiətini öz gözlərimlə görmək imkanı da qazandım. 31 yaşım var və indiyə qədər gəzib gördüyüm yerlər arasında Naxçıvanın öz yeri olduğunu deyə bilərəm.

***– Turnirin qalibi kimi oyunlar haqda nə deyə bilərsiniz?***

– İlk olaraq onu qeyd edim ki, Naxçıvan şahmat oynamaq üçün əla yerdir. Burada şahmat taxtası arxasında oyunlara daha dərindən konsentrasiya olunurdum. Digər bir tərəfdən də oyunların gedişi mənim şansımı artırdı. Artıq festivalın bitməsinə bir tur qalmış özbək və iranlı rəqiblərim üzərindəki qələbədən sonra ən yaxın izləyicim Azərbaycan şahmatçısı Nicat Abasovla aradakı fərqi artırdım və sonuncu turda məni heç-heçə də qane edirdi.

***– Naxçıvana ilk dəfədir ki, gəlirsiniz…***

– Bəli, əvvəllər bir dəfə Bakıda olsam da, Naxçıvana ilk dəfədir ki, gəlirəm. Bu festivalda iştirak edə bilmək üçün imkan yarandıqda mən buna həvəslə razılaşdım və gördüyünüz kimi, artıq sizə bu möhtəşəm turnirin qalibi kimi müsahibə verirəm. Şübhəsiz, hər bir insanın ilk dəfə səfər etdiyi yerdə cəmi 10 günün içində hamı tərəfindən tanınması böyük sevincdir və bu xoşbəxtliyi mənə yaşatdığı üçün festivalın təşkilatçılarına öz minnətdarlığımı bildirirəm. Naxçıvanda olduğumuz zaman asudə vaxtlarımızda gəzib gördüyümüz yerlər, burada rastlaşdığım istiqanlı insanlar məndə yüksək qonaqpərvər Şərq mədəniyyəti təəssüratı formalaşdırdı. Dünyanın hər yerində olmasam da, beynəlxalq turnirlərdə iştirakla əlaqədar çox sayda ölkəyə səfər etmişəm və Naxçıvanda gördüklərim bu təəssüratlarımı daha da zənginləşdirdi.

***– Oyunlar ərzində hansı çətin məqamları xatırlayırsınız?***

– Bu turnirdə qalibiyyət heç də asan başa gəlmədi və yüksəkdərəcəli rəqiblərlə oynamalı oldum. Misal üçün Nicat Abasovla oyunda mən nəinki qələbəni əldən verdim, hətta müəyyən dəqiq olmayan gedişlərdən sonra mat olmaq təhlükəsi də yaşadım. Bu oyun çox gərgin keçdi. Eləcə də Fərid Abbasovla mübarizədə düşdüyüm çətin situasiyadan sonra bəxtimin gətirdiyini deyə bilərəm. Ümumiyyətlə, "A" qrupundakı bütün şahmatçılar dünya səviyyəli idilər və ilk iki turda qarşılaşdığım naxçıvanlı şahmatçıları da keçmək mənim üçün asan olmadı. Bir çoxları şahmatı gərgin zəka oyunu adlandırsalar da, bu yarış oyunçuların bir-birini daha yaxından tanımaları üçün bir fürsətdir. Festivalda mən çox sayda şahmatçı ilə tanış olub, dostlaşdım. Bir daha bu gözəl diyarda keçirdiyim günlər, maraqlı şahmat oyunları üçün festival təşkilatçılarına minnətdarlıq edirəm.

***– Müsahibə üçün sağ olun.***

✍ **Əli CABBAROV**

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş fərdi yaradıcılıq sərgisi



***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda ulu öndər Heydər Əliyevin 96-cı ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovun fərdi yaradıcılıq sərgisi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə birliyin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev Azərbaycan incəsənətinin, bütövlükdə, mədəniyyətimizin rifahı naminə səmərəli işlər həyata keçirib. İncəsənət bugünkü inkişafında ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək Səyyad Bayramovun Naxçıvan teatrında, muxtar respublikada rəsm sənətinin inkişafında göstərdiyi xidmətlərindən danışıb.

Diqqətə çatdırılıb ki, 40-a yaxın tamaşaya tərtibat verən, rəssamlıq sənətinin digər janrlarında da uğurlu nümunələr yaradan, gənc rəssam kadrların yetişməsində yaxından iştirak edən Səyyad Bayramovun yaradıcılığı və əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Mehmet Emin Kiraz, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar və başqaları əlamətdar gün münasibətilə sərgisi keçirilən rəssamı təbrik ediblər.

Rəssam Səyyad Bayramov çıxış edərək sərginin təşkil olunmasında göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Tədbirin sonunda sərgiyə baxış olub. Emosional üslub tərzinə, yüksək peşəkarlığa, zəngin, kontrastlı kolorit həllinə malik 50 rəsm əsəri maraqla qarşılanıb.

Qeyd edək ki, sərgi mayın 15-dək davam edəcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Festival hafizələrə unudulmaz təəssüratlarla yazıldı

***Özünü dünya arenasında şahmat məkanı kimi tanıtmaqda olan Naxçıvan Muxtar Respublikasında daha bir Beynəlxalq Şahmat Festivalı uğurla başa çatdı. Yüksək təşkilatçılığı, əhatə dairəsi, əlamətdar tarixi təqvimi, gərgin və peşəkar mübarizələri ilə tarixiləşən bu festival iştirakçıların hafizəsinə unudulmaz təəssüratlarla yazıldı. Onlardan aldığımız son müsahibələri təqdim edirik.***



***Türkiyəli FİDE ustası Emirhan Tarlabaşı:*** – Əvvəllər bir sıra yarışlarda iştirak etsəm də, Naxçıvanda təşkil olunan Beynəlxalq Şahmat Festivalına ilk dəfədir, qatılırdım. Böyük qürurla deyə bilərəm ki, festival yüksək səviyyədə təşkil olunmuşdu, oyunlar rəngarəng və maraqlı keçdi. Burada dünyanın bir sıra ölkələrinin beynəlxalq qrossmeysterləri, FİDE ustaları iştirak etdiyindən böyük yarış təcrübəsi qazana bildim. Mən "A" qrupunda mübarizə apardım. Düzdür, ilk görüşlərdə ürəkaçan nəticə əldə etməsəm də, son oyunlar mənim üçün uğurlu oldu.

Onu da deyə bilərəm ki, Naxçıvanda bizi çox xoş və qonaqpərvərliklə qarşıladılar, səmimi münasibətin şahidi olduq. İstanbulda yaşayan biri kimi deməliyəm ki, orada Naxçıvandakı qədər yaşıllıq ərazilər, ağaclar yoxdur. Yaz fəsli qədim diyarın gözəlliyinə gözəllik qatıb, hər addımda səliqə-sahmanın, sakitliyin hökm sürməsi bir zəka sahibi kimi mənim ruhumu dincəltdi, əhval-ruhiyyəmə çox müsbət aura bəxş etdi. Festival çərçivəsində Duzdağ Fizioterapiya Mərkəzini ziyarət etmək imkanım oldu. Gördüklərimdən heyrətə gəldim, tuneldəki duz laylarının quruluşuna heyranlıqla tamaşa etdim.

Oğuz yurdunda olduğum müddətdə buranın tarixi-mədəni abidələri, təbiət əraziləri barədə də şifahi məlumat əldə etdim. Amma çox təəssüf edirəm ki, oyunların sıxlığından həmin yerləri gəzmək fürsətim olmadı. Onun üçün də gələcəkdə yenidən Naxçıvana gələrək buranı doyunca gəzmək niyyətim var.



***Ortik Niqmatov – Özbəkistan Respublikası:*** – Festivalın gedişi zamanı növbəti yarışlardan birini – favoritlərdən belaruslu Vladislav Kovalyov kimi güclü bir rəqiblə heç-heçə başa vurmağımı yaxşı nəticə hesab etmək olar. Oyunlara konsentrasiya oluna bilməyimin başlıca səbəbi, şübhəsiz, festivaldakı gözəl təşkilatçılıq idi. Bir beynəlxalq səviyyəli şahmat yarışı üçün hər şey mükəmməl səviyyədə hazırlanmışdı.

Naxçıvanda, ümumiyyətlə, Azərbaycanda ilk dəfədir ki, oluram. Yarışların nəticəsindən asılı olmayaraq, bu festivaldakı çıxışlarım mənim üçün unudulmazdır.

✍ **Nail ƏSGƏROV**
✍ **Əli CABBAROV**

## Humanitar tibbi aksiya keçirilib



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.*

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yüksəkixtisaslı həkim-oftalmoloqları da hər həftənin cümə və şənbə günlərində Naxçıvan Muxtar Respublika Xəstəxanasında humanitar tibbi aksiya keçirir.

Mayın 10-da start verilən növbəti aksiya isə ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmişdi. Aksiyada oftalmoloq-cərrahlar Fərəh Abduləliyevanın, Nəzrin Xıdırovanın və tibb bacısı Səfiyyə Səlimxanovanın iştirakı ilə müxtəlif göz problemlərindən əziyyət çəkən xəstələrin müayinəsi və mürəkkəb göz əməliyyatları aparılıb.

Oftalmoloq-cərrah Fərəh Abduləliyeva bildirib ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi tərəfindən əhaliyə təmənnasız oftalmoloji, xüsusilə cərrahi yardım göstərmək üçün 2005-ci ildə müasir diaqnostik və cərrahi avadanlıqla təchiz olunmuş səyyar klinika təşkil edilib. Bununla yanaşı, mərkəzin həkim heyəti daim Naxçıvanda tibbi müayinələr həyata keçirir.

Müayinəyə və müalicəyə cəlb olunan insanlar onlara göstərilən belə təmənnasız tibbi xidmətə görə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 325